Azərbaycan.- 2023.- 16 fevral. S. 3.

# *Meksika Senatının sədri:* "Dövlətimiz və hökumətimiz erməni soyqırımını tanımır"

Fevralın 14-də Meksika Senatının Sədri Alexandro Armenta Mier Senatın növbəti sessiyası zamanı çıxış edərək bir neçə gün öncə qondarma "erməni soyqırımı"nı tanıyan bəndin qəbulu ilə bağlı açıqlama verib.



Azərbaycanın Meksikadakı Səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, sədr Meksika hökumətinin və dövlətinin erməni soyqırımını tanımadığını bildirib, Meksika Senatının münaqişələrin danışıqlar və sülh yolu ilə həll olunmasının daim tərəfdarı olduğunu vurğulayıb.